XALQ QƏZETİ 2 mart 2022-ci il, çərşənbə S.5.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 53** **Bakı şəhəri, 26 fevral 2022-ci il**

***"Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 avqust tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 avqust tarixli 360 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1465, № 12, maddə 2065; 2020, № 9, maddə 1220; 2021, № 3, maddə 292) ilə təsdiq edilmiş "Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxslərə aşağıdakılar aiddir:

2.3-1.1. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

2.3-1.2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin müvafiq yerli qurumlarında və "DOST" mərkəzlərində işsiz kimi qeydiyyatda olan şəxslər.".

2. 2.4.2-ci yarımbənd və 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.4.2. fiziki şəxsin bu Qaydanın 2.3-1-ci bəndində qeyd edilən kateqoriyalardan birinə aid olduğunu təsdiqləyən sənədin surəti;

2.5. Fiziki şəxsin bu Qaydanın 2.3-1-ci bəndində qeyd edilən kateqoriyalardan birinə aid olduğunu təsdiqləyən sənəd onun müraciəti əsasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir. Fiziki şəxs həmin sənədi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial" internet portalında yaradılan elektron kabineti vasitəsilə və ya "DOST" mərkəzlərinə müraciət etməklə əldə edə bilər.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***